Xalq qəzeti 2020.- 3 noyabr.- S.10.



***"Bütün dünyaya özlərini "Qafqaz xalqı" və Qarabağı özlərinin "qədim yurdu" kimi tanıtmağa çalışan ermənilər XIX əsrdə Rusiyanın Qacarlar və Osmanlı dövlətləri ilə bağladıqları Türkmənçay və Ədirnə sülh müqavilələri nəticəsində Azərbaycana köçürülərək, ərazilərimizdə məskunlaşmağa başlamışlar. Qeyd olunan bu fakt bir çox mənbələrdə, eləcə də çar Rusiyasının arxiv mənbələrində açıq şəkildə qeyd olunmuşdur".***
***Bunu AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun direktoru, professor Maisə Rəhimova bildirib.***

# Arxeoloji tədqiqatlar bərpa ediləcək

Onun sözlərinə görə, ermənilərin hazırda yaşadıqları ərazilərə köçürülməsini təsdiq edən mənbələr olduğu kimi, Azərbaycan xalqının əcdadlarının həmin ərazilərin avtoxton əhalisi olmasını təsdiq edən külli miqdarda qaynaqlar da var. Bunların bir çoxu da antik dövr qaynaqlarıdır.

Ermənilərin 1828-ci ildən başlatdığı azərbaycanlıların sistematik və planlı surətdə qovulub çıxarılması prosesi 1988-ci ildə sona çatdırıldı. Həmin il sonuncu azərbaycanlılar erməni millətçiləri tərəfindən doğma şəhər və kəndlərindən deportasiya edildi. Bu, həm də min illər boyu yaranmış coğrafi adların – toponimlərin tam genosidi ilə başa çatdı. Azərbaycanlı əhali qovulduqca onların kəndləri dağıdılır, adları məhv edilirdi. Hələ 1935-ci ildən etibarən yeni, həm də tam uydurma erməni adları ilə əvəz olunmalar başlandı. Yeni yaradılan erməni dilli coğrafi adların bir qismi Azərbaycan dilindən erməni dilinə tərcümələrdən, digər qismi isə tarixi Azərbaycan toponimlərinə yad olan qondarma coğrafi adlardan ibarətdir.

Professor deyib ki, ermənilər azərbaycanlıların Ermənistan ərazisində tarixi izini silmək üçün qədim türklərə məxsus xaç daşları, balıq və ilan şəkilli daşları, qoç heykəlləri harada varsa məhv etmişlər. Ermənilərin "vişap" adı altında təqdim etdikləri digər abidələr isə əsas etibarilə öküz, at və qoç heykəlləridir. Bu isə regionda türk etnosunun mövcudluğunun izlərini gizlətmək, eyni zamanda, Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinə aid qədim məzar daşlarını erməniləşdirmək məqsədilə edilən saxtakarlıq cəhdidir.

İşğal edilmiş ərazilərdə edilən Azıx mağarasında qanunsuz arxeoloji qazıntı işləri aparmışlar.

İşğal dövründə Cəbrayıl rayonunun peyk görüntüləri ermənilərin bu ərazidə qeyri-qanuni təsərrüfat işləri ilə məşğul olduqlarını aydın şəkildə izləməyə imkan verirdi. Güman etmək olar ki, bu təsərrüfat işləri zamanı bir çox arxeoloji abidəyə ziyan dəymişdir. 28 ildən sonra işğaldan azad olunan doğma



mədəni və tarixi abidələrin məhv edilməsi, hər hansı arxeoloji qazıntının aparılması beynəlxalq hüquq və qəbul edilmiş konvensiyalarla ziddiyyət təşkil etsə də, ermənilər Azərbaycanın ən qədim abidəsi hesab edilən və dünyada ən qədim yaşayış yerlərindən biri kimi qəbul Cəbrayılımızda gələcəkdə aparacığımız tədqiqatlar bu ziyanın miqyasını ölçməyə imkan verəcək.

Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı ordumuzun tezliklə bütün Dağlıq Qarabağ və onun ətrafındakı rayonları işğaldan azad edəcəyinə inanırıq. Arxeologiya və Etnoqrafiya İnstitutunun əməkdaşları həmin ərazilərdə yerləşən və tariximizin qaranlıq səhifələrini aydınlaşdırmağa kömək edən, xalqımızın maddiləşmiş ruhunu saxlayan abidələrdə arxeoloji tədqiqat işləri aparacağımız günləri səbirsizliklə gözləyir və həmin günlərin çox da uzaqda olmadığına inanırıq.



***Hazırladı:***
***M. MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***